# *Prezident İlham Əliyev:* Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır

***Türkiyəli kinematoqrafçıların 25-30 il əvvəl çəkdikləri, türk tarixindən bəhs edən ekran əsərlərindən birində olduqca dəyərli, unuda bilməyəcəyimiz və eyni zamanda bugünkü proseslərlə səsləşən bir məqam vardır. Yadellilərin amansız hücumlarına məruz qalan yaşayış məntəqəsinin sakinləri öz ev-eşiklərini qoyaraq qaçmalı olurlar. Kimin nəyə gücü çatırsa, onu götürərək xilas olmağa çalışır. Ən zəruri şeylər toplanmış zənbili boynundan asan gənc isə yaralı bir insanı da çiyninə götürüb. Yaşlı kişi həmin gəncə kömək etmək məqsədilə deyir ki, övladım, sənin yükün ağırdır, ver zənbili mən götürüm. Gənc deyir: “Çiynimdəki yük deyil, qardaşımdır”. Bəli, qardaş kimsə yük olmaz.***



***Türkiyə güclü bir dövlətdir, dünya miqyasında böyük potensiala malik olan ölkədir, bizim qonşumuzdur, Ermənistanın qonşusudur, Cənubi Qafqazın qonşusudur. Ona görə təbii ki, Türkiyə bu işlərdə fəal olmalıdır... Eyni zamanda, bu döyüşlərin daha böyük müstəviyə çıxmaması üçün Türkiyənin qəti münasibəti çox önəmlidir.***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibəsindən*

*Bakı, 5 oktyabr 2020-ci il*

Bəlkə də milli təfəkkür baxımından ibrət və dərs olaraq həmin məqamı yada salmağımızın, bugünkü iki qardaşla – Türkiyə və Azərbaycanla müqayisə etməyimizin yerinə düşmədiyini deyənlər də tapılacaq. Qoy olsun. Amma hamı bilir ki, Azərbaycan bədəninin 20 faizi alçaq düşmən tərəfindən yaralanmış və otuz il həmin yaranın qan verməsinə dözmüş ölkədir. Biz öz yaramızın sağalmasına çalışdığımız məqamda bədxahların 30 il davam edən inad və israrlarına baxmayaraq, yanımızda gördüyümüz ilk ölkə məhz qardaş Türkiyə oldu. Mən bir vətəndaş kimi fəxr edirəm ki, Azərbaycan Prezidenti İlham Əliyev həmin faktı son üç-dörd ildə az qala hər gün dilə gətirir. Bu, Ali Baş Komandanımızın qədirşünaslığının, ədalətinin, obyektivliyinin və böyüklüyünün bariz nümunəsidir.

Prezident İlham Əliyevin Türkiyənin “TRT Haber” televiziya kanalına verdiyi müsahibə də bu baxımdan istisna təşkil etmədi. Cənab Prezident həmin müsahibədə region həqiqətlərini dilə gətirərkən, Türkiyə Cümhuriyyətinin xüsusi rolundan danışdı: “Türkiyənin ilk saatlardan bizə göstərdiyi dəstək xüsusi önəmə malikdir... Türkiyə dedi ki, biz Azərbaycanın yanındayıq, sona qədər Azərbaycanın yanındayıq. Azərbaycan haqq yolundadır, haqq-ədalət Azərbaycanın tərəfindədir və bu, bir çox başqa aktorlara da xəbərdarlıq oldu”.

Təbii ki, cəbhədən gələn uğurlu xəbərlər hamımızın ürəyini dağa döndərir. Ancaq cənab Prezidentin də dediyi kimi biz – istənilən azərbaycanlı ermənilərdən fərqli olaraq, müharibəni, münaqişəni lənətləyir və daim sülhə can atırıq. Dövlət başçımızın “TRT Haber”ə verdiyi müsahibədəki sülh istəkli notları eşidəndə, bir anlıq elə bildim ki, həmin anlara çatmışıq: “ ... Bundan sonrakı sülh prosesində Türkiyə mütləq olmalıdır. Təbii ki, sülh prosesi başlanacaq, müharibə daim aparıla bilməz və bu, nə qədər tez olsa, o qədər də yaxşıdır. Məhz, bizim fikrimiz bundan ibarətdir və beləliklə, artıq bu bölgədə uzunmüddətli dayanıqlı sülh təmin edilə bilər”.

Hələlik isə dövlət başçımız tamaşaçılarının sayı yüz milyonlarla olan “TRT Haber”ə verdiyi müsahibədə şanlı Azərbaycan Ordusunun növbəti zəfəri barədə məlumat verərək bildirdi ki, artıq Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun bir neçə kəndi də işğaldan azad edilib: “ Ümid edirəm ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək. Eyni zamanda, bu beynəlxalq qanunlara da hörmət əlaməti kimi qəbul edilməlidir. Çünki Dağlıq Qarabağ və işğal edilmiş digər torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır. Beynəlxalq hüquq baxımından da bu torpaqlar Azərbaycan dövlətinə məxsusdur”.

Ancaq çox təəssüf ki, sentyabrın 27-dən bəri beynəlxalq aləmdən bizə ünvanlanan çağırışlar, sadəcə bundan ibarətdir ki, atəşkəsi təmin edin, müharibəyə ara verin, ondan sonra müzakirələr davam etsin. Ona görə də dövlət başçımız soruşur ki, hansı müzakirələr davam edəcək, müzakirələr nəyin əsasında davam edəcək? Bütün dünya bilir ki, biz bu müzakirələrdə artıq 30 ilə yaxındır ki, iştirak edirik və ümidlərlə iştirak edirdik.

Prezident xatırladır ki, əgər ümidlərimiz olmasaydı, təbii ki, bu müzakirələrdə iştirak etməzdik. Hər zaman müzakirələr mövcud olan prinsiplər əsasında gedirdi: “Bu prinsiplərin arasında Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsi vardır. İşğal altında olan bölgələrin mərhələli şəkildə azad edilməsi, bizə qaytarılması, ondan sonra da sülhün təmin olunması məsələsi müzakirə mövzusu idi. Amma bugünkü Ermənistan... əldə edilmiş prinsipləri pozaraq bizə qarşı yeni hücum təşkil etdi. Təbii ki, biz əks-hücum əməliyyatına keçib öz torpaqlarımızı Azərbaycan əsgərinin gücü ilə azad edirik. Ona görə, sadəcə, atəşkəsin bərpa edilməsi məsələsi müzakirə mövzusu ola bilməz”.

Ermənistan dövləti mövcud olduğu bütün tarix boyu sülh, əmin-amanlıq, sabitlik istəməyib və bu gün də istəmir. Azərbaycan Ordusunun davam edən zəfərlərindən, Azərbaycan xalqının Milli Ordunun dayağına çevrilməsindən, Prezident İlham Əliyevin ölkədəki, regiondakı və dünyadakı nüfuzunun saatbasaat artmasından təlaş keçirən Ermənistan rəhbərliyi bu “təhlükələrin” qarşısını almaq üçün ölkəmizin daha ciddi müharibələrə cəlb edilməsinə çalışır: “ Onların çirkin əməlləri buna hesablanıb. Biz hesab edirik ki, buna yol vermək olmaz. Bu müharibə Azərbaycanla Ermənistan arasında olan müharibədir. Bu müharibəni biz başlamamışıq. Biz bu müharibənin səbəbkarı deyilik. Biz, sadəcə olaraq, özümüzü müdafiə edirik və öz torpaqlarımızı geri istəyirik. Bizim Ermənistan torpaqlarında gözümüz yoxdur.” Vəssalam. Bu həqiqətləri dünya ictimaiyyəti dərk edir. Bəs Ermənistan? Əsla.

Ermənistan rəhbərliyinin – yeri gəlmişkən, bizim erməni xalqı ilə heç bir düşmənçiliyimiz yoxdur və dövlət başçımızın da dediyi kimi, Dağlıq Qarabağ işğaldan tam azad ediləndən sonra orada hər iki xalqın icması azad və sərbəst yaşayacaqdır – hansı həqiqəti dərk edib etməməsindən, nəyi qəbul edib etməməsindən asılı olmayaraq, Azərbaycan dövlətinin öz mövqeyi var və dövlət başçımız türkiyəli jurnalistin suallarını cavablandırarkən həmin mövqeni yenidən dilə gətirdi: “Mənim mövqeyimdə hər hansı bir dəyişiklik yoxdur. Biz bu məsələni tarixi ədalət əsasında həll etməliyik... İlk mərhələdə ermənilər beş bölgədən çıxır, sonrakı mərhələdə daha iki bölgədən çıxır, ondan sonra vaxtilə Dağlıq Qarabağın ərazisindən qovulmuş azərbaycanlılar Dağlıq Qarabağa qayıdır, o cümlədən Şuşaya qayıdır, iki toplum çərçivəsində artıq həyat bərpa edilir, Ermənistan-Azərbaycan arasındakı sərhəd açılır, ticarət başlanır, ondan sonra insanlar bir-biri ilə təmasa girirlər və beləliklə, sülh gələcək. Yəni bu, bizim mövqeyimizdir və bu, beynəlxalq vasitəçilərin, həmsədrlərin də münasibətidir. Ermənistan bunu qəbul etmir. Bundan əlavə Ermənistanın müdafiə naziri bir neçə ay öncə demişdir ki, biz yeni torpaqlar uğrunda yeni müharibəyə başlamalıyıq”.

Bəli, Azərbaycan dövləti öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə başladığı əks-hücum əməliyyatları ilə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasına kömək etdiyi kimi, eyni zamanda bütün beynəlxalq təşkilatların nizamnaməsində öz əksini tapan mühüm məsələlərdən birinə -- regionda və dünyada sülhün bərqərar olunmasına xidmət edir. Bu müqəddəs fəaliyyətdə dövlətimizin və Prezidentimizin ən mükəmməl dayağı olan Azərbaycan Ordusunu Allah qorusun!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist,***
***“Xalq qəzeti”***